Ədəbiyyat QƏZETİ

# "Qəbələ keçmişdə və günümüzdə" kitabı təqdim edildi

Dekabrın 22-də Azərbaycan Kitab təbliğatı mərkəzində professor Qəzənfər Paşayevin "Qəbələ keçmişdə və günümüzdə" kitabının təqdimatı oldu. Milli Məclisin Mədəniyyət Komitəsinin, Regional Hüquqi və İqtisadi Maarifləndirmə İctimai Birliyi, Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İctimai Birliyi, "Nəfəs" İctimai Birliyi və Masallı Təhsil Fondunun birgə təşkilatçılığı ilə reallaşan tədbiri tanınmış şair Əkbər Qoşalı açdı. Azərbaycanın Milli Qəhrəmanı, şəhid general Polad Həşimovun əziz xatirəsinə həsr olunmuş kitabın rəyçisi, ədəbiyyatşünas alim Abid Tahirli professor Q.Paşayevin elmi-bədii yaradıcılığından, ədəbiyyatımıza verdiyi töhfələrdən ətraflı bəhs etdi.

Kitaba əhatəli ön söz yazan Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva alimin keçdiyi həyat yolundan, təqdim edilən kitabın məziyyətləri haqqında danışdı.

Azərbaycanın Milli Qəhrəmanı, şəhid general Polad Həşimovun anası Səmayə Həşimova oğlunun xatirəsini əziz tutanlara minnətdarlığını, Qəbələnin tarixini dolğun şəkildə əks etdirən müəllifə dərin təşəkkürünü bildirdi.

Professor Şirindil Alışanlı, Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid, millət vəkilləri Vüqar İsgəndərov, Arzu Nağıyev, Azərbaycan Mətbuat Şurasının sədr müavini Umud Rəhimoğlu, filologiya üzrə fəlsəfə doktoru, şair Adil Cəmil, yazıçı-publisist Sərvaz Hüseynoğlu, professor İradə Hüseynova, Mədəniyyət Nazirliyinin məsul işçisi Kamran Musayev, hərbi jurnalist Emin Həsənli, tanınmış naşir Şamil Sadiq, tədbirin təşkilatçıları Arzu Bağırova, Firəngiz Balakişiyeva, gənc şair İntiqam Yaşar, görkəmli alimin qızı Təranə Paşayeva çıxış edərək təqdim olunan kitabla bağlı təəssüratlarını bölüşdülər.




Professor Elçin İsgəndərzadə rəhbəri olduğu Beynəlxalq Akademiyanın təsis etdiyi Fəxri doktor diplomunu və qızıl ordenini Q.Paşayevə təqdim etdi.

Sonda "Qəbələ keçmişdə və günümüzdə" kitabının müəllifi, professor Qəzənfər Paşayev tədbirin təşkilatçılarına, əsəri barədə fikirlərini bölüşən söz adamlarına, millət vəkillərinə minnətdarlığını bildirdi. Qeyd etdi ki, ulu öndər Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin qayğısı sayəsində ən parlaq dönəmini yaşayan Qəbələ şəhəri Milli Qəhrəman, şəhid general Polad Həşimovun, eləcə də bir çox tarixi şəxsiyyətlərin dünyaya gözə açdığı diyardır. Bu diyarı öyrənmək və xüsusi dəyər vermək bizim mənəvi borcumuzdur. Keçmişi bilmədən, onu qiymətləndirmədən hədəfə çatmaq mümkünsüzdür.

**Sərvaz**